*Zərifə Əliyeva–90*

# Zərifə Əliyeva anıldı

Bu dünyaya vida deyib, sənətindən, peşəsindən asılı olmayaraq xatirələrdə yaşayan insanları zaman-zaman xatırlamaq adəti nə yaxşı ki, hələ də qalıb. Bu adət bizə xatırlanan insanların timsalında bir millət, bir xalq kimi nələrə qadir olmağımızın, kimlərlə təmsil edilməyimizin qürurunu yaşatmaqla bərabər, həm də çağdaş dövrdə və bundan sonra da özümüzə bir qədər kənardan baxmaq, özümüzü dəyərləndirmək imkanı yaradır.

Bu günlərdə Qəbələ şəhər Pərviz Osmanov adına 2 saylı tam orta məktəbində Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyevanın yubiley tədbiri keçirilmişdir.

Tədbirdə iştirak edənlər öz çıxışlarında Zərifə xanımın elmi fəaliyyətindən danışdılar, ictimai işlərdə göstərdiyi uğurlardan söhbət açdılar. O da qeyd edildi ki, Zərifə xanım keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, "Bilik" cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqları Elmi Cəmiyyətinin "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Tədbir yuxarı sinif şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya ilə davam etdirildi.

Məktəbdə eyni zamanda "Zərifə xanım ana kimi" mövzusunda inşa yazı müsabiqəsi də keçirilmişdir.

**Elmira MƏSİMOVA,**
**Qəbələ şəhər 2 saylı tam orta məktəbin direktor əvəzi.**

# Tədbir keçirildi

Respublikamızın hər yerində görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 90 illiyi ilə əlaqədar bütün idarə, müəssisə və təşkilatlarda geniş miqyaslı tədbirlər keçirilir. Belə tədbirlərdən biri də Qəbələ şəhər Ş. Bulqədirov adına 5 saylı tam orta məktəbdə qeyd olundu.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Zərnişan Ağamirzəyeva açdı. O, öz çıxışında Zərifə xanımın şərəfli həyat yolundan, onun oftalmologiya sahəsindəki nailiyyətlərindən geniş söhbət açdı. Sonra məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Şəkufə Əhmədova məruzə etdi. Təşkilati işlər üzrə direktor müavini Sevinc Əzizova, məktəbin tarix müəllimləri Tahir Məsimov və Abgül Musayeva da Zərifə xanımın həyat və yaradıcılığı haqqında bütün işlərdə ulu öndər Heydər Əliyevlə çiyin-çiyinə işləməsindən danışdılar. Zərifə xanım görkəmli alim və oftalmoloq olması ilə yanaşı humanist insan, gözəl anadır. Məktəbin 3-cü sinif şagirdlərindən Fidan Cavadova, Aytac Həsənova, IV a sinif şagirdi Gülsüm Quliyeva, VIII sinif şagirdlərindən Türkanə Şərifli, Gülşən Novruzova, Fidan Yusifova, IX a sinif şagirdi Mehriban Mürsəlova Vətənə, anaya, Azərbaycana aid bir-birindən gözəl şerlər söylədilər. Türkanə Şərifli, Sevil Əliyevanın anası Zərifə xanıma həsr etdiyi "Ana" mahnısını ifa etdi.

Tədbirin sonunda görkəmli alim, oftalmoloq Zərifə xanım Əliyevanın həyat və yaradıcılığına həsr edilmiş qısametrajlı sənədli filmə baxıldı.

**Ziyafət ƏSGƏROVA,**
**Qəbələ şəhər Ş. Bulqədirov adına 5 saylı tam orta məktəbin müəllimi.**

*Heydər Əliyev–90*

# Müasir vergi xidməti ulu öndər Heydər Əliyevin qurduğu təməllərə söykənir

Aprel ayının 26-da səhər saat 9 tamamda 10 saylı ərazi vergilər idarəsinin kollektivi şəhər mərkəzindəki Heydər Əliyevin adını daşıyan parka gələrək, ulu öndərin əzəmətli abidəsi önünə gül-çiçək dəstələrini qoymuş və ona olan böyük hörmət və ehtiramını bildirmişlər. Sonra kollektiv buradan Heydər Əliyev mərkəzinə getmiş və mərkəzin foyesindəki ulu öndərin abidəsi önünə gül qoymuşlar. Kollektiv eyni zamanda mərkəzin salonunda ümummilli liderimiz Heydər Əliyevin şərəfli ömür salnaməsini əks etdirən stendlərlə tanış oldular.

Sonra tədbir vergilər idərəsinin iclas zalında davam etdirildi. Ulu öndərin 90 illik yubileyinə həsr edilmiş tədbiri 10 saylı ərazi vergilər idarəsinin rəisi Şahismayıl Bayramov giriş sözü ilə açdı və o, «Müasir vergi xidməti ümumilli lider Heydər Əliyevin qurduğu təməllərə söykənir» mövzusunda məruzə etmişdir. Natiq vurğuladı ki, 1993-cü ildə xalqın istəyi ilə yenidən Heydər Əliyevin hakimiyyətə qayıdışı banisi olduğu milli dövlətçilik konsepsiyasının inkişafına təkan verdi. Dahi öndərin gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz bütövlüyünü, dövlət müstəqilliyini qoruyub saxladı, xalqımız vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Ölkədə getdikcə gərginləşən iqtisadi və siyasi böhranların qarşısı alındı, böyük quruculuq işlərinə başlandı və dövlətçilik tarixinin yeni mərhələsinin əsası qoyuldu. Bununla da respublikada iqtisadiyyatın inkişafı və kompleks islahatların həyata keçirilməsinə real şərait yarandı.

Respublikamızın müstəqil vergi xidmətinin yeni standartlar əsasında qurulması da məhz ulu öndərin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi altında vergi siyasətinin konsepsiyasının əsas konturları müəyyənləşdirmiş və bu sahədə radikal islahatların aparılmasına başlanılmışdı. Bu konsepsiyaya uyğun olaraq müstəqil Azərbaycan Respublikasının vergi sisteminin təşəkkül prosesi baş tutmuşdur. Heydər Əliyevin vergi sistemində apardığı islahatların mühüm sahələrindən biri qanunvericilik bazasının qurulması olmuşdur. Vergitutma sahəsi uzun müddət müxtəlif dövrlərdə qəbul edilmiş qanunlar və normativ hüquqi aktlarla tənzimlənmişdir. Lakin həmin dövrdə ölkənin iqtisadi inkişaf perspektivləri və işgüzarlığın fəal şəkildə artması qanunvericilik bazasının təkmilləşdirilməsinin zərurətə çevirmişdi.

Vergitutma sahəsində mükəmməl qanunvericilik bazasının yaradılması istiqamətində əsas işlər 1998-ci ildən başlanmışdı. Ümummilli lider Heydər Əliyevin şəxsi siyasi nəzarəti altında gərgin iş prosesindən sonra 2001-ci ildə Vergi Məcəlləsi qüvvəyə mindi.Bu sənədin qəbul olunması sahibkarlığın inkişafına və ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasına əlverişli şərait yaratdı. Belə ki, bu sənədlə tətbiq olunan 13 vergi növü əvəzinə 8 vergi növü və buna alternativ olaraq sadələşdirilmiş sistem üzrə vergitutma təsbit olunmuşdur. Bundan başqa əksər vergi növləri üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı minimuma endirilmişdi.

Natiq daha sonra qeyd etdi ki, Vergi Məcəlləsinin qəbull edilməsi vergitutma sahəsində təkcə vahid bir qanunvericilik bazasını yaratmadı, eyni zamanda sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılmasına imkan verdi. Əvvəllər vergi qanunvericiliyi sahəsində mövcud olan müxtəlif vergi növləri üzrə təlimatlar sistemi aradan qaldırıldı və vergitutmanın vahid sənəd əsasında aparılmasına əlverişli şərait yaradıldı. Vergi Məcəlləsinin qəbulu vergi sahəsində islahatların genişləndirilməsi üçün təkan rolunu oynadı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə vergi xidmətində aparılan islahatların mühüm bir qolunu da vergi islahatçılığının təkmilləşdirilməsi məsələləri təşkil etmişdir. Bu baxımdan vergi orqanlarının inzibati-təşkilatı strukturunun yenidən qurulması qarşıda duran məsələlərdən biri idi. 1999-cu ildən başlayaraq yeni vergi orqanlarının strukturunun müasirləşdirilməsinə dair növbəti addım Vergilər Nazirliyinin yaradılması oldu. Vergilər Nazirliyinin yaradılması, onun həm səlahiyyətlərinin, həm də ölkə iqtisadiyyatının inkişafına rolunun müəyyənləşdirilməsi ümummilli lider Heydər Əliyevin bu sahəyə göstərdiyi böyük diqqətin bariz nümunəsi idi. İslahatlar Vergilər Nazirliyinin mərkəzi aparatında da aparılmışdı. Vergilər Nazirliyində aparılan geniş miqyaslı struktur və kadr islahatları respublikanın 60 şəhər və rayon vergilər idarəsinin ləğv edilməsi, vergi əməkdaşlarının sayının 40 faiz azaldılması çox riskili görünsə də bu struktur daim ulu öndərin diqqət və qayğısından kənarda qalmadı.



Ümummilli lider Heydər Əliyevin Azərbaycanın vergi xidmətinin formalaşmasında və yenidən qurulmasında xidmətləri danılmazdır. Bütövlükdə vergi xidmətində aparılan islahatların fəlsəfəsi, strategiyası və əsas istiqamətləri məhz onun rəhbərliyi altında hazırlanmış və həyata keçirilmişdir. Bu gün vergi sahəsində əldə edilmiş nailiyyətləri, aparılan işlərin nəticələri və bəhrəsini gördükdə dahi insan dönə-dönə yada salır, əldə edilmiş uğurların onun müdrik və uzaqgörən siyasətinin nəticəsi olduğunu qeyd edirik.

Sonda yuxarıda qeyd edilən mövzu ətrafında və digər mövzularda 10 saylı ərazi vergilər idarəsinin əməkdaşları R. Əhmədov və Z. Əsgərli çıxış etdilər.

Tədbiri idarənin rəisi Ş. Bayramov yekunlaşdırdı.

**Aslan CƏLİLOV,**
**Foto S. UMUYEVİNDİR.**